# HƏKİM-EPİDEMİOLOQ VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Müxtəlif yoluxucu xəstəliklər zamanı epidemiyaya qarşı tədbirlərin həyata keçirilməsi üçün qanunvericiliyin əsasları
2. Müalicə-profilaktika müəssisələrində epidemiyaya qarşı sanitar rejimini müəyyən edən metodiki sənədlər haqqında məlumat
3. Dezinfeksiyanın aparılması qaydaları
4. Yoluxucu xəstələnmələr üzrə hesabat qeydiyyat sənədlərinin hazırlanma qaydaları
5. Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə norma və qaydaları

**1. Epidemiologiya xəstəlikləri hansı səviyyədə öyrənir?**
A) Orqanizm səviyyəsində
B) Orqan səviyyəsində
C) Toxuma səviyyəsində
D) Populyasiya səviyyəsində
E) Hüceyrə səviyyəsində

**2. Klassik epidemiologiyanın öyrənmə obyekti nədir?**
A) Qeyri-infeksion xəstəliklərlə xəstələnmə
B) Epizootik proses
C) Epifitotik proses
D) Epidemik proses
E) İnfeksion proses

**3. "Ekzotik" xəstələnmə dedikdə nə başa düşülür?**
A) Həmin ərazi üçün xarakterik olan infeksion xəstəliklər
B) Həmin ərazi üçün xarakterik olan endemik xəstəliklər
C) Həmin ərazi üçün xas olmayan somatik xəstəliklər
D) Həmin ərazi üçün xarakterik olmayan infeksion xəstəliklər
E) Həmin ərazi üçün xarakterik olan qeyri – infeksion xəstəliklər

**4. İnfeksion xəstəliklərin formalarından epidemioloji baxımdan ən təhlükəlisi:**
A) Rekonvalessent formalarıdır
B) Xroniki formalarıdır
C) Atipik, çətin aşkar olunan formalarıdır
D) Transmissiv zoonozlardır
E) Tipik, manifest formalarıdır

**5. Epidemik ocaq nədir?**
A) Hər hansı bir infeksion xəstəlik hadisələrinin daim aşkar edildiyi ərazi
B) Ekzotik xəstəliklər ocağı
C) Enzootik ocaq
D) Parazit populyasiyası
E) İnfeksiya mənbəyinin olduğu yer və onu əhatə edən ərazi

Nümunə